Tarix və onun problemləri, №3 2009

**ELÇİN QARAYEV**
*AMEA A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycan qonşu xalqlarla əlaqələri və xanlıqlar dövrü tarixi» şöbəsinin b.e.i., tarix elmləri namizədi*

# SOVET TARİXŞÜNASLIĞINDA İRƏVAN XANLIĞI TARİXİNİN MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİNƏ DAİR

XVIII yüzilliyin ikinci yarısında Azərbaycanda yaranan xanlıqlarından biri də İrəvan xanlığıdır. Bu xanlığın tarixi xanlıq çar Rusiyası tərəfindən işğal edildikdən sonra saxtakarlığa məruz qalmış və bu saxtakarlıq sovet tarixşünaslığında da davam etdirilmişdir. İşğaldan sonra köçürmələr nəticəsində İrəvan xanlığı ərazisində etnik baxımdan çoxluğa nail olan və Sovet hakimiyyəti dövründə bu xanlığın ərazisində dövlət yaradan ermənilər onun keçmişini unutdurmaq üçün bütün vasitələrdən istifadə etmişdilər. Sovet erməni tarixçilərinin demək olar hamısı İrəvan xanlığının tarixini «Böyük Ermənistan»ın bir hissəsi olan Şərqi Ermənistan ərazisi nöqteyi-nəzərindən yanaşmış, bütün hadisələri erməni xalqının mənafeyi baxımından izah etmişdilər. Onlar uzun illər heç bir tarixi mənbəyə əsaslanmadan İrəvan xanlığının ərazisini, yer adlarını, əhalinin etnik və say tərkibini, qəhrəmanlıq mübarizəsini açıq-açığına təhrif etmiş, bütün hadisələri erməni xalqının adına çıxmışdılar. Buna ayrı-ayrı sovet tarixçilərinin əsərlərində, dərsliklərdə, ensiklopediyalarda və hətta məlumat xarakterli məcmuələrdə rast gəlmək mümkündür.

Sovet tarixşünaslığında İrəvan xanlığı tarixinin təhrif edilməsi və saxtalaşdırılması məsələsinə münasibət bildirilməsi indiki dövrdə də böyük əhəmiyyət kəsb edir. Bu məsələnin öz həllini tapması tarixi həqiqətin bərpasına müsbət təsir göstərər və İrəvan xanlığı ilə bağlı bütün məsələlərə aydınlıq gətirərdi.

İlk növbədə erməni müəlliflərindən olan A.R.İoannesyanın əsərlərində (1; 2; 3) qarşıya qoyduğu konsepsiyanı nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, müəllif əsərlərində İrəvan və Qarabağ xanlıqlarını tarixi Ermənistan torpağı kimi qələmə vermişdi (1,34; 2,15). Digər tərəfdən XVIII yüzilliyin 60-80-ci illərində Rusiyanın Cənubi Qafqaz siyasətinə özlərinin casusluq fəaliyyəti ilə kömək edən ayrı-ayrı erməni xadimlərinin- İ. Lazarevin, arxiyepiskop İ.Arqutinskinin, İ.Eminin və başqalarının xidmətlərini erməni xalqının azadlıq hərəkatı kimi təqdim edərək, onların İrəvan xanlığı ərazisində erməni dövlətinin yenidən bərpa edilməsi planlarından bəhs etmişdir. Əvvəla məsələnin belə qoyuluşu yanlışdır və heç bir tarixi fakta əsaslanmır. Belə ki, ermənilərin Cənubi Qafqaza, xüsusilə də indiki Ermənistan ərazisinə gəlmə olduqları tədqiqatçılar tərəfindən sübut olunmuşdu. Mütəxəssislər arxeoloji mənbələrlə sübut etmişlər ki, ermənilərin əcdadları güman edilən qəbilələr e.ə. təxminən XII yüzillikdə Balkan yarmadasından Kiçik Asiyaya gələrək Fərat çayının yuxarı hissəsində yerləşmiş və müasir erməni xalqı bu ərazidə formalaşmışdı (4,237; 5,20-21). Tarixi mənbələrə və tədqiqatçıların əsərlərinə görə erməni müəlliflərinin «Şərqi Ermənistan» kimi qələmə verdiyi uydurma ərazinin İrəvan torpaqlarına heç bir aidiyyəti yoxdur. Belə ki, ilkin orta əsrlərdə İrəvan torpaqları Qafqaz Albaniyasının, X-XI yüzilliklərdə Azərbaycanda yaranmış Sacilər, Salarilər və Şəddadilər dövlətinin, XIV-XV yüzilliklərdə Cəlarilər, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI-XVIII yüzilliyin birinci qərinəsinə qədər Səfəvilər dövlətinin, sonra isə Nadir şah Əfşarın yaratdığı dövlətin tərkib hissəsi olmuşdu (6; 7; 8; 9; 10; 11; 12; 13; 14).

Digər tərəfdən yerli əhali məsələsinə toxunan müəllif öz-özünü dolaşdırır. O, İ.Arqutinskinin P.S.Potemkinə ünvanladığı məktuba əsaslanaraq etiraf edir ki, İrəvan xan-

lığında çox az erməni yaşayır və onlar da yerli xandan asılıdır (2,15, 44). Lakin A.P.İoannesyan xanlıqda yaşayan ermənilərin fəaliyyətini şişirdərək, onların Rusiya dövlətinə casusluq fəaliyyətini azadlıq mübarizəsi kimi qələmə verir, ermənilərin İran əsarətindən əziyyət çəkdiyini göstərirdi. Ermənilərin fəallaşmasını isə 1779-cu ildə Kartli-Kaxetiya çarı II İraklinin İrəvana hücumu ilə əlaqələndırmişdi (2,112-113). Qeyd etmək lazımdır ki, İrəvan xanlarının siyasətindən və tez-tez olan müdaxilələrdən təkcə ermənilər deyil, eyni zamanda əhalinin əksəriyyətini təşkil edən Azəri türkləri də əziyyət çəkmişdi. Digər tərəfdən ikiüzlü və məkrli olan ermənilər həmişə İrəvan xanlığının çətin vəziyyətindən istifadə edərək Kartli-Kaxetiya çarlığına və Rusiya dövlətlərinə casusluq fəaliyyətilə kömək edərək, onların diqqətini xanlığa yönəltməklə, burada qarışıqlıq salmağa çalışırdılar.

Erməni sovet tarixşünaslığında ilk dəfə İrəvan xanlığının tarixini tədqiq etməyə cəhd edən V.R.Qriqoryan olmuşdur. Onun əsəri 1958-ci ildə erməni dilində nəşr edilmişdi (15). Ermənistanın mərkəzi arxivi olan Matenandaranda saxlanılan sənədlər əsasında yazılan bu əsər İrəvan xanlığının 1780-1800-cü illər tarixini əhatə edir. İnsafən qeyd etmək lazımdır ki, monoqrafiyada İrəvan xanlığının siyasi, sosial-iqtisadi vəziyyəti, dövlət quruluşu, inzibati-ərazi bölgüsü, təbii sərvətləri, vergi və mükəlləfiyyətləri, əhalinin sayı haqqında müəyyən məlumatlar verilmişdir. Lakin bu əsərdə də İrəvan xanlığı kifayət qədər saxtalaşdırılmışdı. Burada ərazi məsələsinə toxunan müəllif İrəvan xanlığını belə təqdim edir: «XVIII əsrdə öz müstəqilliyini çoxdan itirmiş Ermənistan iki şərq müstəbid dövlətləri olan Türkiyə və İran arasında bölünmüş vəziyyətdə qalmaqda davam edirdi. Onun qərb hissəsi Türkiyənin, şərq hissəsi isə İranın tabeliyi altında idi... Qərbi Ermənistan paşalıqlardan, Şərqi Ermənistan isə xanlıqlardan təşkil olunmuşdu. İrəvan xanlığı Şərqi Ermənistanda olan ən böyük və ən qüdrətli dövlətlərdən biri idi. O, Şərqi Ermənistanın mərkəzi hissəsini əhatə edirdi və qonşulara nisbətən hakim mövqeydə idi» (15,26). Görünür ki, bütün erməni müəllifləri kimi V.R.Qriqoryan da İrəvan xanlığını Ermənistan ərazisi kimi təqdim edir. Lakin burada uyğunsuzluğun olduğunu görmək olur. Müəllif bir tərəfdən qeyd edir ki, İrəvan İranın tabeçiliyində idi, digər tərəfdən onu qüdrətli xanlıq hesab edir. Bundan əlavə, əsərdə İrəvan xanlığının 12 mahaldan ibarət olduğu göstərilmişdi. Əvvala qeyd etmək lazımdır ki, müəllifin XVIII əsrin axırlarına aid verdiyi bu inzibati-ərazi bölgüsü həqiqətə uyğun deyildir. Həmin dövrdə mahalların sayı daha çox olmuş və bu dövrdə Sərdarabad mahalının mövcudluğu haqqında verilən məlumat tam yanlışdır. Mənbələrə görə, Sərdarabad mahalı İrəvan xanı Hüseynqulu xanın dövründə (1806-1827) Sərdarabad qalası tikildikdən sonra yaradılmışdı. Bu qala isə bir məlumata görə 1810-cu ildə (16,255), digər məlumata görə isə 1815-ci ildə tikilmişdir (17,106).

Əsərdə saxtalaşdırılmış və etiraz doğuran məsələlərdən biri də əhali məsələsidir. V.R.Qriqoryan əhalinin say tərkibini tamamilə saxtalaşdıraraq xanlıq əhalisinin əksəriyyətinin ermənilərin təşkil etdiyini və sonrakı yerlərin azərbaycanlılar, kürdlər, türklər və farslar tutduğunu qeyd edir (15,37). Müəllifin əhali arasında farsları və türkləri qeyd etməsi Azəri türklərinin bilə-bilə sayını azaltmağa səydir. Lakin İrəvan xanlığında aparılan statistik məlumatlarda əhalinin əksəriyyətinin Azəri türkləri, ermənilərin isə azlıq təşkil etdiyi göstərilmişdi (18,18-19; 19,26; 16,540-599). Bundan əlavə, əsərdə yer adlarının erməniləşdirilməsi, tez-tez xanlığın Ararat ölkəsi kimi təqdim edilməsi və s. məsələlər müəllifin erməni ənənəsinə sadiqliyini göstərir və bilə-bilə İrəvan xanlığının tarixini erməniləşdirməyə çalışır.

V.A.Parsamyanın 1972-ci ildə nəşr olunan monoqrafiyası da diqqəti cəlb edən əsərlərdəndir (20). Burada təsvir edilən hadisələr 1801-1900 illəri əhatə edir. Əsərin birinci və ikinci fəsilləri İrəvan xanlığının tarixinə həsr olunmuşdur. Lakin monoqrafi-

yanın adından göründüyü kimi müəllif bu xanlığın tarixini erməni xalqının tarixi kimi qələmə verərək, oxucunu buna inandırmaq və həqiqətdən yayındırmaq istəyir. Erməni ənənəsinə sadiq qalan V.A.Parsamyan İrəvan və Naxçıvan xanlıqlarını Şərqi Ermənistan ərazisi kimi təqdim edir (20,6). İrəvan xanlığının siyasi tarixi, dövlət quruluşu, inzibati-ərazi bölgüsü, şəhər və kənd həyatı, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər, əhali, əhalinin sayı, etnik və dini tərkibi, silki tərkibi haqqında məsələləri Ermənistan dövlətində baş verən hadisə kimi göstərir. Əhalinin sayına gəldikdə isə müəllif bilə-bilə həqiqəti təhrif etməyə çalışır. O, yazır ki, Rusiyaya birləşənə qədər Ermənistanın şərq hissəsi (İrəvan və Naxçıvan xanlıqları-E.Q.) 169 minlik əhaliyə malik idi, bunun 34 %-i ermənilər, 50 %-i müsəlmanlar, 15 %-i isə kürdlər təşkil edirdi (20,12). Hər iki xanlığın əhalisi haqqında verilən bu statistiq rəqəmlər yanlışdır. Aparılan kameral təsvir sübut edir ki, İrəvan xanlığında erməni əhalisinin sayı xeyli az olmuşdu (18,18-19; 19,26; 16, 540-599). Ermənilərin İrəvan xanlığına və Azərbaycanın digər ərazilərinə köçürülməklə çoxluğa nail olunmasını müəllif özü də etiraf edir. O, yazır ki, 1828-ci ildə 45-50 min nəfərlik erməni əhalisi İrəvan və digər xanlıqlara köçürülmüşdü (20,50). Digər tərəfdən, V.A. Parsamyan hər iki xanlıqda əhalinin əksəriyyətini təşkil edən Azəri türklərini müsəlman kimi qələmə verir. Erməni müəllifləri isə müsəlman adı altında tək Azəri türklərini deyil, eyni zamanda fars və osmanlı türklərini də qələmə verməyə çalışır və bilə-bilə yerli əhalinin sayını azaltmağa cəhd edirlər.

Digər erməni müəlliflərin fikirlərini müdafiə edən Q.A.Qaloyan, T.X.Akopyanın və B.M.Arutunyanın əsərlərində (21; 22; 23) də İrəvan xanlığının siyasi, ictimai-iqtisadi tarixi, dövlət quruluşu, inzibati-ərazi bölgüsü, şəhər və kənd həyatı, əhalinin sayı, etnik və dini tərkibi, erməni əhalisinin köçürülməsi, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyəti haqqında məlumatlara rast gəlmək olar. Lakin bu müəlliflər də ənənələrinə sadiq qalaraq İrəvan xanlığının ərazisini Şərqi Ermənistan kimi təqdim edir, bütün hadisələri erməni xalqının tarixi kimi qələmə verir və bu xanlığın tarixini tamamilə saxtalaşdırmışdılar.

İrəvan xanlığının tarixinin təhrif edilməsi 1980-ci ildə İrəvanda nəşr olunmuş «Erməni xalqının tarixi» adlı ümumiləşdirilmiş əsərdən də yan keçməmişdir (24). Bu əsərin üçüncü fəsilində İrəvan xanlığınadan bəhs edilir. Hadisələr XIX yüzilliyin əvvəllərindən xanlıq işğal olunana qədər bir dövrü əhatə edir. Burada da İrəvan xanlığı Şərqi Ermənistan ərazisi kimi göstərilir, qısa da olsa onun siyasi, sosial-iqtisadi və əhali məsələlərinə toxunulur (24,183-200). Erməni müəlliflərinin digər əsərlərində olduğu kimi burada da xan başda olmaqla idarə orqanlarının və əhalinin əksəriyyətini təşkil edən Azəri türklərinin fəaliyyəti kölgədə qalır və Rusiya dövlətinə casusluq edən ayrı-ayrı erməni xadimlərinin fəaliyyəti isə həddən artıq şişirdirilir.

Qeyd etmək lazımdır ki, bütün erməni müəllifləri İrəvan xanlığını Ermənistan dövləti kimi qələmə almasına baxmayaraq, bu xanlığın tarixinin bütövlüklə tədqiq olunmasından qaçırlar. Onların əsərlərinə diqqət etdikdə görmək olar ki, İrəvan xanlığının tarixi XVIII yüzilliyin 80-ci illərindən və əsasən də XIX yüzilliyin əvvəllərindən təsvir edilir. İşğal olunan dövrdən bu günə qədər İrəvan xanlığını Ermənistan dövləti hesab edən erməni müəllifləri bu xanlığın tarixini ətraflı tədqiq etməkdən çəkinmiş və bu məsələdə birtərəfli xətt götürmüşlər. Bu bir daha sübut edir ki, İrəvan xanlığının tarixinin hərtərəfli tədqiqi əsil sahibinin- Azərbaycan tədqiqatçısının işidir.

İrəvan xanlığının tarixinin saxtalaşdırılması 1956-cı ildə nəşr olunmuş «Очерки истории СССР» adlı ümumiləşdirilmiş əsərdə də öz əksini tapmışdır. Əsərin bir bölməsi «Ermənistan» kimi təqdim edilir və əslində burada İrəvan xanlığından bəhs edilmişdir (25,736-754). Bu bölmənin müəllifləri olan A.R.İoannesyan və P.T.Arutunyan burada İrəvan xanlığını Şərqi Ermənistan kimi qələmə alaraq, onun siyasi, sosial-iqtisadi vəziy-

yəti, sənətkarlıq, ticarət, vergi və mükəlləfiyyətləri, mədəniyyəti və s. təsvir etməyə çalışmışdılar. Lakin əsərdə İrəvan xanlığı erməni dövləti kimi təqdim edilsə də, diqqət etdikdə görmək olar ki, bu xanlığın tarixindən çox Eçmiədzin kilsəsinin tarixinə toxunulmuş və ayrı-ayrı erməni xadimlərinin casusluq və mədəni fəaliyyətindən bəhs edilmişdir.

Rus sovet tarixşünaslığında Azərbaycanın xanlıqlar dövrü tarixinin bir sıra problemləri şərqşünas alim İ.P.Petruşevskinin tədqiqatlarında işıqlandırılmışdır. Onun ayrı-ayrı əsərləri (26; 27) Azərbaycan, o cümlədən xanlıqlar dövrü tarixinin müxtəlif məsələlərinə- siyasi, iqtisadi, torpaq mülkiyyəti formaları, əhalinin sosial-silki tərkibinə, vergi və mükəlləfiyyət formalarına həsr edilmişdir. Lakin müəllif erməni konsepsiyasından kənara çıxmayaraq həmin əsərlərdə İrəvan xanlığının tarixini Ermənistan tarixi kimi qələmə almış, bu xanlığın ərazisində baş verən hadisələri erməni xalqının adına çıxmışdır. İ.P.Petruşevskinin əsərlərində belə fikir möcuddur: «Qafqaz Ermənistanının böyük hissəsi İrəvan və yaxud Çuxursəd əyalətinin (bəylərbəyliyinin-E.Q.), digər hissəsi isə (Şərur, Dərələyəz və Zəngəzur) bəzi şimal hissəsi ilə birlikdə Qarabağ əyalətinə daxildir» (27,117). Əslində müəllifin qeyd etdiyi ərazi Azərbaycanın qədim ərazisi olan İrəvan xanlığının ərazisindən başqa bir şey deyildir. Belə ki, tədqiqatçı İrəvan xanlığını erməni dövləti kimi qələmə verməsinə baxmayaraq, əsərlərin məzmununa baxdıqda görmək olar ki, ermənilərlə bağlı bütün hadisələr Eçmiədzin kilsəsindən kənara çıxmır və qarşıya qoyulan bütün məsələlər bu kilsə və ona məxsus mülkyyətlə bağlıdır. Lakin buna baxmayaraq, İ.P.Petruşevskinin əsərlərinin İrəvan xanlığının tarixinin öyrənilməsində misilsiz yeri vardır.

Rus sovet tarixçisi O.P.Markova əsərində (30) XVIII yüzilliyin ikinci yarısında Cənubi Qafqazda iri dövlətlərin mənafeyinin toqquşduğu bir vaxtda İrəvan xanlığının Kartli-Kaxetiya çarlığı, Rusiya, İran, Osmanlı dövlətləri ilə siyasi münasibətlərinə də müəyyən yer vermişdir. Qeyd etmək lazımdır ki, XVIII yüzillikdə iri dövlətlərin Cənubi Qafqaz uğrunda mübarizəsinə toxunan müəllif qarşılıqlı olaraq buradakı hadisələri ətraflı təsvir etməyə çalışmışdır. Lakin bu sanballı əsərdə İrəvan xanlığının tarixi ilə bağlı qüsurlara rast gəlmək olar. Belə ki, müəllif İrəvan xanlığına Ermənistan dövləti kimi yanaşmış və İ.Eminin fəaliyyətini erməni ənənəsinə uyğun olaraq Ermənistanın azad edilməsi kimi dəyərləndirmişdir (30,134). Bu fikrə yuxarıda münasibət bildirilmişdir. Daha sonra Rusiyanın Cənubi Qafqazda Erməni çarlığı yaratmaq siyasətinə toxunan O.Markova oxucunu inandırmaq istəyir ki, guya Türkiyə arasında bufer zona təşkil etdiyini nəzərə alaraq bu çarlığın yaranmasına İran da maraqlı olmalıdır (30,189-190). Müəllifi bu fikri İranda Əlimurad xanın hakimiyyətə gəlməsi ilə əlaqələndirmişdi. Bildiyimiz kimi, 1779-cu ildə Kərim xan Zənd vəfat etdikdən sonra İranda onun varisləri arasında taxt-tac uğrunda mübarizə başlamışdı. 1783-cü ilin sonlarında müvəqqəti taxt-tacı ələ keçirən Əlimurad xan hakimiyyətini möhkəmləndirmək və rəqiblərini aradan götürmək üçün Rusiyanın dəstəyini qazanmaq qərarına gəlmişdi. Hətta kömək müqabilində o, Rusiyanın Qaradağ, Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının işğal etməsinə göz yummağı söz vermişdi (30,191). Lakin hakimiyyətdə qalmağa çalışan bir şəxsin maraqlarını dövlətin siyasi maraqları ilə əlaqələndirmək düzgün deyildir. Əsərdə qüsurlu cəhətlərdən biri də Ağa Məhəmməd xan Qacarın İrəvana hücumu ilə bağlıdır. Müəllif 1795-ci ildə Cənubi Qafqaza hücumu zamanı İrəvan xanlığının ona müqavimətsiz təslm olmasını qeyd etmişdi (30,288). Lakin mənbələrə əsasən qeyd etmək olar ki, İrəvan xanlığı bu tarixi yürüş zamanı Ağa Məhəmməd xanın qoşunlarına güclü müqavimət göstərmişdi (15,160-164; 31,80-81).

H.İbrahimbəylinin 1969-cu ildə Moskvada nəşr olunmuş əsərində (161) isə XIX yüzilliyin birinci otuzilliyində Azərbaycan xanlıqlarının Rusiya dövləti tərəfindən işğalı tədqiq edilmişdir. Əsərdə həm birinci, həm də ikinci Rusiya-İran, Rusiya-Osmanlı mü-

haribələri ətraflı təsvir edilmişdir. Burada qısa da olsa İrəvan xanlığı ərazisində gedən döyüşlər də öz əksini tapmışdır (32,73-74, 97-98, 199-205). Lakin təəssüf ki, müəllif erməni ənənəsinə uyğun olaraq İrəvan xanlığını Azərbaycan xanlıqlarından ayırır və bu xanlığı Ermənistan dövləti kimi təqdim edir. Digər tərəfdən əsərdə səhvən Həsən xan sonuncu İrəvan xanı kimi göstərilir (32,195). Lakin bildiyimiz kimi, İrəvanın sonuncu xanı Hüseynqulu xan olmuşdur.

İrəvan xanlığının təhrif edilməsi müxtəlif ensiklopedik məlumatlarda da öz əksini tapmışdır. Otuz cilddən ibarət «Böyük Sovet Ensiklopediyası»nın 9-cu cildində İrəvan xanlığı ilə bağlı məlumat verilmişdir (28). Bu məlumatda da İrəvan xanlığı Şərqi Ermənistan ərazisi kimi qeyd edilmiş və xanlığın yaranması XVII əsrin əvvəlində göstərilmişdi. İrəvan şəhəri isə birmənalı olaraq erməni şəhəri adlandırılmışdı (28,89-91). Lakin mənbəyə əsasən qeyd etmək lazımdır ki, XVII əsrin əvvəllərində İrəvan əyaləti Səfəvilər dövlətinin inzibati-ərazisi olan Çuxursəd bəylərbəyliyinin tərkibində olmuş və bu bəylərbəyliyin mərkəzi İrəvan şəhəri idi (13,101). İrəvanın müstəqil xanlıq kimi yaranmasının və fəaliyyətinin XVII əsrin əvvəllərindən başlaması müddiası heç bir tarixi mənbəyə əsaslanmayan erməni müəlliflərinin saxtakarlığına sübutdur.

Azərbaycan Sovet Ensiklopediyasında da İrəvan xanlığı haqqında məlumat öz əksini tapmışdır (29). Lakin burada İrəvan xanlığına ehtiyatla yanaşılmış və çox zidiyyətli məlumat verilmişdir. ASE-nin İravanla bağlı məlumatı iki hissədən ibarətdir. Birinci hissədə xanlığın özü haqqında bəhs edilmişdir. Burada İrəvan xanlığı Zaqafqaziyada (Azərbaycanda yox-E.Q.) yaranan dövlət kimi qeyd olunmuş, onun erməni ənənəsinə uyğun Ararat düzənliyində, Sevan gölü hövzəsində yarandığı xüsusilə vurğulanmışdı. Mahalların sayı isə yanlış olaraq 12 göstərilmişdir. Bunun ardınca hakimiyyətdə əslən Azərbaycanlı olan (erməni yox-E.Q.) xanlar və onların fəaliyyəti haqqında məlumat verilmişdi (29,79-80). İkinci hissədə isə Ermənistan tarixi ilə bağlı məlumat öz əksini tapmışdı. Bu hissədə bizi maraqlandıran İrəvan xanlığı ilə bağlı məsələdir. Burada da İrəvan xanlığı erməni dövləti kimi qeyd olunmuş, İrəvanda baş verən hadisələr ermənilərin azadlıq hərəkatı kimi göstərilmişdir. Məsələn, burada İ.Eminin fəaliyyətinə belə qiymət verilmişdi: «1761-ci ildə İ.Orinin davamçısı İ.Emin Ermənistan dövlət müstəqilliyinin bərpası haqqında Rusiya hökumətilə danışıqlara başladı (29,84). Sonra məlumat belə davam etdirilir: «1813-cü ildə Şimali Azərbaycan (Naxçıvan xanlığından başqa) xanlıqları, Türkmənçay sülh müqaviləsinə (1828-ci il) əsasən isə Naxçıvan və İrəvan xanlıqları Rusiyaya birləşdirildi... (29,84). Məlumatdan göründüyü kimi ASE-də də İrəvan xanlığı birmənalı olaraq Ermənistan dövləti kimi qeyd olunur.

Gürcü sovet tarixşünaslığında İrəvan xanlığına münasibət bir qədər ziddiyyətli olmuşdur. Bu ziddiyyətli məlumat 1946-cı və 1962-ci illərdə nəşr edilmiş «Gürcüstan tarixi» adlı dərslik kitablarında öz əksini tapmışdır (33; 34). Hər iki nəşrdə İrəvan xanlığı ilə bağlı hadisələr təkraralanır, lakin birinci nəşrdə İrəvan müsəlman, yəni Azərbaycan xanlığı kimi göstərilir. (33,432). İkinci nəşrdə isə biz bir qədər fərqli mövqe görürük. Məsələn, burada erməni siyasi xadimlərinin Ermənistanı, yəni İrəvan xanlığının azad edilməsi planlarından bəhs edilir. Burada İ.Eminin vahid Gürcü-Erməni dövlətinin fəaliyyətindən danışılır və hər dəfə İrəvan xanlığı Ermənistan kimi qeyd olunur (34,391-392).

Dərsliklərdə ziddiyyətli məqamlar kifayət qədərdir. Məsələn, 1751-ci ilin axırlarında Təbriz hakimi Azad xanın İrəvana hücumu və onun II İrakli ilə toqquşmasında bu çarın fəaliyyətinin şişirdilməsi reallıqdan uzaqdır. Əsərdə qeyd olunur ki, guya bu döyüşdə Azad xan məğlub olaraq geri qayıtmışdı (33,402-403; 34,359). Lakin son məqamda Azad xan qələbə çalmış və hətta öz adamını İrəvana hakim təyin etmişdi (35,207). Dərsliklərdə təhrif edilmiş hadisələrdən biri də 1779-cu ilin sentyabrında II İraklinin

İrəvan xanlığına hücumu idi. Burada göstərilir ki, guya İrəvan xanı II İraklidən bağışlanmasını xahiş etmiş və çar Kartlidə olan hadisə ilə bağlı xanın xahişini qəbul etmiş və tələsik Tiflisə qayıtmışdı (33,432; 34,393). Lakin mənbələrə əsasən məsələnin belə olmadığını görürük. Bu hadisədə irəvanlılar Hüseynəli xan başda olmaqla gürcü qoşunlarına güclü müqavimət göstərərək təslim olmamışdılar (36,156; 37,22).

Birinci nəşrdə ən maraqlı məqam isə 1783-cü ildə Kartli-Kaxetiya çarlığının Rusiya ilə bağlanmış müqavilədə II İraklinin titulunun şişirdilməsi olmuşdu. Traktatda göstərilir: «II İrakli... Şamaxının mtavarı (hakim knyazı-E.Q.), Şirvanın hakim knyazı, Gəncə və İrəvan xanlıqlarının padşahı» (33, 437). Əvvəla tarixi ədəbiyyatda II İraklinin Şamaxı xanlığını öz nüfuz dairəsinə alması haqqında məlumat yoxdur. Bu gürcü tədqiqatçısının uydurmasıdır. İkincisi, İrəvan və Gəncə xanlıqları ara müharibələri və beynəlxalq vəziyyətlə əlaqədar olaraq Kartli-Kaxetiya çarlığından nominal asılı olmuş, lakin bu asılllıq vergi verməklə məhdudlaşırdı. Qalan məsələlərdə onlar müstəqil olmuşdular.

Gürcü sovet tarixçilərindən G.Kikodzenin «II İrakli» əsərində də İrəvan xanlığının bəzi məqamlarına toxunulmuşdur (38). Əsər Kartli-Kaxetiya çarı II İraklinin həyat və fəaliyyətindən bəhs edilsə də, onun İrəvan xanlığı ilə əlaqələrinə də müəyyən qədər yer verilmişdir. Burada müsbət məqamlardan biri müəllifin İrəvan xanlığını Azərbaycan xanlığı kimi dəyərləndirməsidir (38,33). Lakin əsərdə İrəvan xanlığı ərazisində Nadir şahın sərkərdələrindən biri Azad xanla II İrakli arasında baş verən döyüşdə, digər gürcü tədqiqatçılarının əsərlərində olduğu kimi Kartli-Kaxetiya çarının fəaliyyəti tamamilə şişirdilmişdi. Bu hadisəyə yuxarıda münasibət bildirildiyindən təkrar etməyə ehtiyac yoxdur.

Q.Q.Payçadzenin «Georgievski traktatı» əsərində də (39) İrəvan xanlığı ilə bağlı bəzi ziddiyyətli məqamlar öz əksini tapmışdı. Bu əsər Rusiya ilə Kartli-Kaxetiya arasında bağlanmış 1783-cü il müqaviləsindən bəhs edilsə də, burada İrəvan-Kartli-Kaxetiya münasibətlərinə də müəyyən qədər yer verilmişdi. Monoqrafiyada ən maraqlı məqam müəllifin İrəvan xanlığına münasibətidir. O, yazır ki, İrəvan xanlığı 1604-cü ildə əsası İran şahı (Səfəvi şahı-E.Q.) I şah Abbas tərəfindən Şərqi Ermənistan ərazisində yaranmışdı (39,57). Müəllifin İrəvanın müstəqil xanlıq kimi yaranmasının XVII əsrin əvvəllərində göstərilməsi erməni ənənəsinə əsaslanır. Buna yuxarıda münasibət bildirilmişdir. Digər tərəfdən müəllif İrəvan xanlığını erməni dövləti olmadığını xüsusilə qeyd edir. Gürcü tarixçisi fikirini belə izah edir: «Beləliklə, İrəvan xanlığı dövlət idarəçiliyi aparatına görə erməni dövləti deyildir» (39,57). Müəllifin gəldiyi bu nəticə yuxarıda göstərdiyi müddiyanı alt-üst edir.

Azərbaycan sovet tarixşünaslığında isə vəziyyət bir qədər fərqlənir. Tədqiqatçılarımızın XX əsrin 20-ci illərin birinci yarısında nəşr olunmuş bəzi əsərləri istisna olmaqla Azərbaycan sovet tarixşünaslığında İrəvan xanlığı haqqında obyektiv məlumatlara rast gəlmək mümkün deyil. Azərbaycan tarixi yazılması sahəsində 1921-ci ildə M.Vəlilinin (Baharlı) Bakıda nəşr olunmuş «Azərbaycan. Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat» (40), 1923-cü ildə R.İsmayılovun «Azərbaycan tarixi» (41) və C.Zenaloğlunun «Müxtəsər Azərbaycan tarixi» (42) əsərləri mühüm yer tutur. Hər üç əsərdə Azərbaycanın müxtəlif dövlərinin siyasi, iqtisadi həyatı, təbii-coğrafiyası, təbii sərvətləri, əhali və digər məsələləri öz əksini tapmışdır. Lakin bizim üçün ən mühüm məsələ xanlıqlar dövrü tarixi və İrəvan xanlığına münasibətdir. Müsbət hal ondan ibarətdir ki, hər üç müəllif İrəvan xanlığını Azərbaycan xanlığı olduğunu qəbul edir və hadisələrə obyektiv yanaşır.

Lakin İrəvan xanlığına bu cür münasibət digər Azərbaycan tədqiqatçılarının əsərlərində görmürük. 1920-ci illərin ikinci yarısı-30-cu illərdə xalqımıza qarşı repressiyanın

güclənməsi, inzibati amirlik sisteminin tarixşünaslığa sirayət etməsi tariximizin həqiqi tədqiqinə mane olmuşdur. Tədqiqatçılarımız millətçi damğasından ehtiyat edərək tariximizin bir çox problemlərində, əsasən də ərazi məsələsində susmuşdular. Məhz bu baxımdan İrəvan xanlığının tarixinə biganə yanaşılmış və bir növ Azərbaycanın bu qədm torpaqları ermənilərə «güzəşt» edilmişdi.

Düzdür, bəzi tədqiqatçılarımızın əsərlərdə İrəvan xanlığının siyasi tarixi ilə bağlı məsələlər öz əksini tapmışdır. Cənubi Azərbaycan xanlıqlarının görkəmli tədqiqatçısı H.Ə.Dəlilinin əsərində (43) XVIII əsrin ikinci yarısında Cənubi Azərbaycan xanlıqarının siyasi, iqtisadi, idarəçilik və digər məsələlərindən bəhs etməklə yanaşı, İrəvan xanlığının Urmiya və Xoy xanlıqları ilə siyasi münasibətlərinə qısa da olsa toxunmuşdur. Lakin müəllif bu xanlığa Azərbaycan deyil, Ermənistanda yaranan dövlət kimi yanaşır (43,20).

Beləliklə, Sovetlər dövründə xalqımıza ögey münasibət tarixşünaslıqda da öz əksini tapmışdır. Sovet tarixşünaslığında xalqımızın tarixinin müxtəlif məsələləri- mənşəyi, təşəkkülü və müxtəlif dövrlərdə inkişaf mərhələləri ilə bərabər, ərazi məsələsi də təhriflərə məruz qalmışdır. Belə münasibət Azərbaycanın qədim ərazilərindən biri olan İrəvan xanlığının tarixindən də yan keçməmişdir. Erməni mənbələrində və tarixşünaslığında İrəvan xanlığının erməni ərazisi və dövləti olması ilə bağlı müddialar sovet tarixşünaslığına da yol tapmışdır. Heç bir əsası olmadan uzun illər İrəvan xanlığı Azərbaycan ərazisindən qoparılmış və onun tarixi erməni dövləti kimi tədqiq edilmişdir.

## *ƏDƏBİYYAT*

1.Иоаннесян А.Р. Иосиф Эмин. Издательство Ереванского государственного Университета. Ереван, 1945.
2.Иоаннесян А.Р. Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия. Издательство Ереванского государственного Университета. Ереван, 1947.
3.Иоаннесян А.Р. Присоединение Закавказья к России и международные отношения в начале XIX столетия.Издательство АН Армянской ССР, Ереван, 1958.
4.Дьяконов И.М. Предистория армянского народа. Ереван, 1968.
5.Əliyev İ. Dağlıq Qarabağ, tarix, faktlar, hadisələr. Bakı, Elm, 1989. 120s.
6.M.Kalankaytuklu. Albaniya tarixi. Müqəddimə, tərcümə, qeyd və şərhlər Z.Bünyadovundur. Bakı: Elm, 1993, 273 s.
7.Мамедова Ф.ДЖ. Политическая история и историческая гография Кавказской Албании. Баку, 1986.
8.Историческая география Азербайджана. Баку: Элм, 1987. 148с.
9.Şərifli M.X. IX əsrin ikinci yarısı XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, Elm, 1978, 344 s..
10.Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı: Elm, 1984, 268 s.
11.Эфендиев О. Азербайджанское государство Сефевидов. Баку: Элм, 1987.
12.Рахмани А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700). Баку, Из-во «Элм», 1981, 238 с.
13.Tadhkirat-al-muluk. A manuel of Safavid administration (circa 1137) 1725. Translated and expained by V.Minorsky. London, 1943.
14.Локкарт Л. Надир шах (переведено с английского Гезаловой Н.Р). Баку, Ганун, 2004, 396 с.
15.Григорян В.Р. Ереванское ханство в конце XVIII столетия (1780-1800). Ереван, 1958. (арм.яз.).
16.Шопен И. Исторический памятник состаяния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852.
17.Кавказский календарь на 1851г. Тифлис, 1850.

18.İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. Məmmədov H (Qaramanlı). Bakı, «Elm», 1996, 184 s.
19.Коцебу М.Е. Записки. Описание в Грузию в 1826. «Кавказский сборник», т.XXII, стр.5-182.
20.Парсамян В.А. История Армянского народа. 1801-1900 гг., книга первая. Из-во «Айастан», Ереван, 1972.
21.Галоян Г.А. Россия и народы Закавказья. Москва, «Мысл», 1976.
22.Акопян Т.Х. Очерк истории Еревана. Изд-во Ереванского Универ-та, Ереван, 1977.
23.Арутюян Б.М. Крупное монастырское хозяйство в Армении в XVII-XVIII вв. Издательство АРМФАН, Ереван, 1940.
24.История армянского народа, с древнейших времен до наших дней. Издательство Ереванского Университета. Ереван, 1980.- 460 с.
25.Очерки истории СССР, XVIII в. Вторая половина. Москва, Изд-во АН СССР, 1956, стр.736-754.
26.Петрушевский И.П.Персидские офисальные документы XVI- нач. XIX вв. как источник для истории феодальных отношений в Азербайджане и Армени. «Проблеми источниковедения». т.III, АН ССР, 1940.
27.Петрушевский И.П. Очерки по истории феодальных отношения в Азербайджане и Армении XVI- начале XIX вв. Ленинград, Из-во ЛГУ, 1949, 385с.
28.Большая Советская Энциклопедия, №9. Москва, Изд-во «Советская Энциклопедия». 1972, стр. 89-90.
29.Azərbaycan Sovet Ensiklopediyası, c.IV. Bakı, «Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası, 1980, səh.79-84).
30.Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва, Изд-во «Наука», 1966.
31.Əliyev F, Həsənov U. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997.
32.Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XIX века (из военно-политической истории). Москва, Наука, 1969.
33.История Грузии. Часть 1, с древнейших времен до начала XIX века. Под редакцией С.Джанашиа. Учебник для старших классов средней школы. Тбилиси, Государственное издательство Грузинской ССР, 1946.
34.История Грузии. Часть 1, с древнейших времен до 60-х годов XIX века. Учебное пособие. Тбилиси., Издательство Учебно-педагогической литературы. 1962.
35.Ериванци С. Джанбр. Москва., Издательство Восточной литературы, 1958.
36.Армяно-русские отношения в XVIII веке, 1760-1800 гг. Сборник документов. Ериван, Изд-во АН Арм.ССР, 1990.
37.Араратский А. Жизнь Артемия Араратского, (две части в одном томе). Москва, Издательство Наука, 1981.
38.Кикодзе Г. Ираклий второй. Тблиси., Издательство Заря Восток, 1945.
39.Пайчадзе Г.Г. Георгиевский трактат. Тблиси., Издательство «Мецниереба», 1983.
40.Vəlili (Baharlı) M. Azərbaycan., coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat. Bakı, Azərnəşr, 1993.
41.İsmayılov R. Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1993.
42.Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi (elmi-publissistik və tarixi kitab). Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992.
43.Dəlili H. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında). Bakı, Elm, 1979.

ЭЛЬЧИН ГАРАЕВ

## О СПОРНЫХ ВОПРОСАХ ИСТОРИИ ИРЕВАНСКОГО ХАНСТВА В СОВЕТСКОЙ ИСТОРИОГРАФИИ

Статья посвящена вопросу фальсификации истории Иреванского ханства в советской историографии. Автор проводит анализ работ отдельных советских историков, учебников, энциклопедий, в которых нашли отражение необъективные суждения армянских авторов, рассматривавших Иреванское ханство как Восточную Армению, а происходившие события-сквозь призму интересов армянского нарада. В статье автор на основе исторических документов высказывает свое критическое отношение к фальсифицированному освещению истории Иреванского ханства в работах советских историков и доказывает принадлежность этого ханства к азербайджанским государственным образованиям.

ELCHIN GARAYEV

## ABOUT QUESTIONS AT ISSUE OF HISTORY IRAVANIAN KHANATE IN THE SOVIET HISTORIOGRAPHY

Article was light to a question of falsification of history Iravanian khanate in the Soviet historiography. The author carries out the analysis of works of the Soviet historians, and also textbooks, encyclopedias in which biassed judgements of the Armenian authors considering Iravanian khanate as East Armenia repeated, and happened events - through a prism of interests of Armenian people. In this article the author on the basis of historical documents states the critical relation to the forged illumination of history Iravanian khanate in works of the Soviet historians and an belonging of it khanate to the Azerbaijan state educations.

***Rəyçilər: t.e.n.S.M.Hacıyeva, t.e.d.A.C.İsgəndərov.***

***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu «Azərbaycanın qonşu xalqlarla əlaqələri və xanlıqlar dövrü tarixi» şöbəsinin 03 iyul 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03)***